## Futbol

# «Qəbələ» «İnter»i məğlub etdi

Topaz Premyer Liqasının X turunda "Qəbələ" Bakıda keçirilən görüşdə "İnter"ə 1:0 hesabı ilə qalib gələrək liderlərlə özünün arasındakı iki xallıq mövqeyini qoruyub saxlamışdır.

Digər oyunlar isə belə nəticələnmişdir: "Neftçi"-"Rəvan"-2:1, "Bakı"-AZAL-2:2, "Sumqayıt"-"Qarabağ"-0:3, "Simurq"-"Xəzər Lənkəran"-1:2.

Çempionatın növbəti oyunları noyabrın ilk günlərində keçiriləcəkdir.

**Miri RƏHİMOV.**

# Topaz Premyer Liqasının TƏQVİMİ

**XII tur**

**1 noyabr (cümə)**

56. "Bakı" (Bakı) – "Simurq" (Zaqatala)

**2 noyabr (şənbə)**

57. "Neftçi" (Bakı) – "Xəzər Lənkəran" (Lənkəran)

58. "İnter" (Bakı) – "Rəvan" (Bakı)

**3 noyabr (bazar)**

59. "Sumqayıt" (Sumqayıt) – AZAL (Bakı)

60. "Qarabağ" (Ağdam) – "Qəbələ" (Qəbələ)

**XIII tur**

**8 noyabr (cümə)**

61."Rəvan" (Bakı) –«Sumqayıt" (Sumqayıt)

**9 noyabr (şənbə)**

62. AZAL (Bakı) – "Qarabağ" (Ağdam)

63. "Simurq" (Zaqatala) – "İnter" (Bakı)

**10 noyabr (bazar)**

64. "Xəzər Lənkəran" (Lənkəran) – "Qəbələ" (Qəbələ)

65. "Neftçi" (Bakı) – "Bakı" (Bakı)

**XIV tur**

**21 noyabr (cümə axşamı)**

66. "Qəbələ" (Qəbələ) – AZAL (Bakı)

**22 noyabr (cümə)**

67. "Bakı" (Bakı) – "Xəzər Lənkəran" (Lənkəran)

68. "Sumqayıt" (Sumqayıt) – "Simurq" (Zaqatala)

**23 noyabr (şənbə)**

69. "İnter" (Bakı) – "Neftçi" (Bakı)

**24 noyabr (bazar)**

70. "Qarabağ" (Ağdam) – "Rəvan" (Bakı)

**XV tur**

**29 noyabr (cümə)**

71. "Rəvan" (Bakı) – "Qəbələ" (Qəbələ)

**30 noyabr (şənbə)**

72. "Xəzər Lənkəran" (Lənkəran) – AZAL (Bakı)

73. "Simurq" (Zaqatala) – "Qarabağ" (Ağdam)

74. "Neftçi" (Bakı) – "Sumqayıt" (Sumqayıt)

75. "Bakı" (Bakı) – "İnter" (Bakı).

# Sizin maraq dünyanız

Məşhur ərəb şairi, Qahirə universitetinin professoru Şeyx Məhəmməd Əbdül İbrahim 150 yaşında vəfat etmişdi. O, ömrünün çoxunu subay keçirmişdi.105 yaşında evlənmiş və 3 uşaq atası olmuşdu.

* * *

Malayziyanın 84 yaşlı sakini Avanq Səid 80 dəfə evlənmişdi. Onun sonuncu arvadı 30 yaşında olmuşdu. Səidin 45 uşağı var.

* * *

Fransız Pyer Defornal 3 oğul atası olub. Maraqlısı budur ki, uşaqların hər biri ayrı-ayrı əsrdə anadan olmuşdur. Birinci ogul 1699 cu ildə, ikinci ogul 1738-ci ildə, üçüncü isə 1801-ci ildə... Pyer üçüncü arvadı ilə evlənəndə onun özünün 120 yaşı, arvadının isə 19 yaşı olub. Pyer 129 yaşında vəfat etmişdi.

**Rəciyyə ŞİRİNOVA,**
**Qəbələ şəhəri.**

# Qəbələ şəhər sakinlərinə!

Qəbələ şəhər İnzibati Ərazi Nümayəndəliyi sizə bildirir ki, Atmosfer havasının tüstü ilə çirklənməsini, bunun da ətraf ərazidə yaşayan insanların sağlamlığına mənfi təsirini, həmçinin rayonumuza çoxsaylı qonaqların gəlib-getməsini nəzərə alaraq həyətinizdə, yaşadığınız küçədə xəzəlin, hər hansı məişət tullantılarının yandırılmasına yol verilməməlidir.

Tullantıların və xəzəlin yığılaraq şəhərin zibilxana sahəsinə daşınmasını və yaxud həyətinizdə müəyyən sahə vardırsa oraya toplanaraq, üstünün torpaqlanmasını (müəyyən vaxtdan sonra xəzəlin çürüntüyə çevrilməsi daha faydalıdır) təşkil edəsiniz.

Əks təqdirdə 27.03.2001-ci il tarixli "Havanın Mühafizəsi Haqqında" Azərbaycan Respublikası Qanununu pozanlar inzibati məsuliyyətə cəlb ediləcəklər.

**QƏBƏLƏ ŞƏHƏR İNZİBATİ ƏRAZİ NÜMAYƏNDƏLİYİ.**

## ELAN

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 15 may 1998-ci il tarixli 9 saylı qərarla Mirzəbəyli kənd sakini Əzizova Saray Əziz qızının adına verilmiş **JN-008F №-li (kod 40613018) Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə itdiyi** üçün etibarsız sayılır.

## ELAN

Qəbələ Rayon İslahat Komissiyası tərəfindən 25 iyun 1998-ci il tarixli 11 saylı qərarla Bum Qəsəbə (o vaxt kənd) sakini Hüseynov Sahib Caman oğlunun və ailə üvlərinin adına verilmiş **JN 009 №-li (kod 40600038) Torpağa mülkiyyət hüququna dair Dövlət aktı itdiyi üçün** etibarsız sayılır.

## İdman

# Karateçimiz qızıl

«Qəbələ» idman klubunun üzvü Rafael Ağayev İndoneziyada keçirilən İslam



Ölkələrinin III Həmrəylik Oyunlarında qızıl medala sahib olub. İdmançımız final döyüşünə qədər Əlcəzair, Türkiyə və Misirdən olan rəqiblərinə qalib gəlib. Həlledici görüşdə isə iranlı Səid Həsənpuru məğlubiyyətə uğradaraq fəxri kürsünün ən yüksək pilləsində dayanıb. İlk yarış günündə onun komanda yoldaşları Ayxan Mamayev qızıl, Şahin Atamov isə gümüş medala sahib oldublar.

Onu da xatırladaq ki, səkkiz il bundan öncə-- 2005-ci ildə I İslam Oyunlarının iştirakçısı olan Rafael 3-cü yeri tutmuşdu. Rafaelin arzusu 2015-ci ildə Bakıda keçiriləcək I Avropa Oyunlarının qalibi olmaqdır.

Hazırda «Qəbələ» İdman Klubunun karate bölməsinin rəhbəri olan Rafael Ağayev həm də komandamızın baş məşqçisidir.

Bir faktı da yaddan çıxarmayaq ki, indiyədək 4 dəfə dünya, 11 dəfə Avropa çempionu titulunu qazanmış idmançımızdan daha böyük uğurlar gözləmək olar.

**Miri RƏHİMOV.**

# Mehman Avropa üçüncüsüdür

Bosniya və Hersoqovinanın paytaxtı Sarayevoda cüdo üzrə gənclər arasında Avropa birinciliyi keçirilib. Azərbaycanın yığma komandası qitənin ən nüfuzlu yarışını 2 qızıl və 3 bürünc medalla başa vurub.

Sevindirici haldır ki, "Qəbələ" cüdo klubunun 3 idmançısı-Mehman Sadıqov 55 kiloqram, Cəlil Cəlilov 66 kiloqram və Aişə Qurbanlı 48 kiloqram çəki dərəcəsində yığmamızın tərkibində mübarizə aparıblar.

Tatamiyə çıxan təmsilçilərimizdən bu dəfə yalnız Mehman Sadıqov fərqlənib. O, qitə birinciliyinin bürünc medalını qazanıb. Onu da qeyd edək ki, bu çəki dərəcəsində qızıl medal Azərbaycan cüdoçusu Davud Məmmədova nəsib olub.

Xatırladaq ki, milli komandamız qazandığı 5 medalla ümumi komanda hesabında 43 ölkə arasında üçüncü nəticə göstərib.

**Şöhrət SÜLEYMANOV.**

## ALLAH RƏHMƏT ELƏSİN

Şəhər 1 nömrəli uşaq bağçasının kollektivi iş yoldaşları **Təranə Abdurahmanovaya,** qardaşı

**ƏJDƏRİN**

Bakı şəhərində vəfatı ilə əlaqədar başsağlığı verir və onun kədərinə şərik olduğunu bildirir.

«Qəbələ» qəzetinin kollektivi iş yoldaşları **Miri Rəhimova,** qaynı

**ƏJDƏR ABDURAHMANOVUN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyinin direktoru Xalis Məmmədov və muzeyin kollektivi iş yoldaşları **Ağgül İmran qızına,** anası

**HÜRÜ XANIMIN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

«Qəbələ» qəzeti redaksiyasının kollektivi iş yoldaşları **Səhrab Umuyevə,** yaxın qohumu

**ƏSLİ XANIMIN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

Redaktor
O. Ə. Məmmədov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
Məsul növbətçi
N. R. Atakişiyev.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, İ. Qutqaşınlı küçəsi, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AIIB 33080019444900218149
VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2300.
Oxucu məktubları geri qaytarılmır.